

**Nizami Muradoğlu**

## Dünya gözəldi

O dünyada nələr vardı - bilmirəm,
Yerlər vardı, göylər vardı - bilmirəm.
Çaylar vardı, sular vardı - bilmirəm,
Ya Rəb, elə bu dünya da gözəldi!

Mələklər var - gözəllərə taydısa,
Səhər günəş, gecə doğan aydısa,
Dar günümü xoş ömrümə saydısa,
Vallah, elə bu dünya da gözəldi!

Qışı gözəl, yayı gözəl, yaz gözəl,
Bal arıda, bu qızlarda naz gözəl.
Nə yazırsan taleyimə yaz gözəl,
Vallah, elə bu dünya da gözəldi!

Muradoğlu dərgahına duaçı,
Yaratdığın tikanlar da gül açır.
Şükür verdin əyal, övlad, alaçıq,
Vallah, elə bu dünya da gözəldi!

Çiling-ağac oynayaq
Qış ötüşdü, yenə fəsli-yaz oldu,
Uşaqlığın, heyif ömrü az oldu.
Xan bağında çala-çuxur qazıldı,
Dövrə vuraq, kürəkləri yağlayaq,
Gəlin, dostlar, çiling-ağac oynayaq.

Çiling vuraq kimin ağacı sınsa,
Bu oyundu - kim yensə, kim yenilsə,
əzəl-axır kim minsə, kim minilsə,
miniləni hoya basaq, hoylayaq,
gəlin dostlar, çiling-ağac oynayaq.

Ayağımız tər içində boğulsa,
Keçib gedər, can-başımız sağ olsa,
Kim güclüdür bu oyundan doğulsa,
Qəhrəmana nəğmə deyək, boylayaq,
Gəlin dostlar, çiling-ağac oynayaq.

Cığal qasım neçə gündür çərləyib,
Qaş-gözünü bir qız üstə hərləyib.
Oynamır ki, bığ yerimiz tərləyib,
Çiling qıraq, uşaqlığı quylayaq,
Son dəfə biz çiling-ağac oynayaq.

## Nənələr

Səs-səda gözləyər, izlər yolları,
Həsrəti gözündə, dərdi dərində.
Oğullar görəndə öz oğulları
Gələr xəyalına nənələrin də.

Bəs niyə qayıtmır gedən oğullar,
Gözləri yol çəkir indiyə təkin.
Qucmaq həsrətiylə açılıb qollar,
Uçmaq həsrətində bir cüt göyərçin.

Dodağında layla, gözü beşikdə,
O uzaq illərə qoşar nənələr.
Nisgillə dolanar evdə, eşikdə,
Nigaran-nigaran yaşar nənələr.

Uşağa çevrilər ahıl yaşında,
Sevinməz doyunca, gülməz doyunca.
Nənələr dayanar dağlar başında,
Nənələr ağlayar yol ayrıcında.

## QADIN DEYİRƏM

Göydən mələk kimi gəlibdi yerə,
Mələkdi, huridi qadın deyirəm.
Əl çatmaz, ün yetməz yüksəkliklərə,
Şərəflə yazılıb adın deyirəm.

İşdə əməkçisən, evdə anasan,
Hər zaman bilirəm məndən yanasan.
Çiçək tək zərifsən, nazlı sonasan,
Ruhuma od verir odun deyirəm.

Dünyaya tən gəlir sənin varlığın.
Var eşqin, əməlin, könül yarlığın.
Kişinin qeyrəti, bəxtiyarlığı,
Sevilən qadındır, qadın deyirəm!

## Əvəzində

Mən sənə sevgimi, könlümü verdim,
Sən mənə dərd verdin, dərd - əvəzində.
Mən səni hər yerdə əziz eylədim,
Sən məni pərt etdin, pərt - əvəzində.

Çilik-çilik etdin məhəbbətimi,
Sən satdın sərvətə səadətini.
Necə bağışlayım xəyanətini?!
Nə qədər mərd olsam, mərd - əvəzində.

Bir işə yaramır göz qanunları,
Lap elə tapdala, poz qanunları.
Nə cürə istəsən yoz qanunları,
Taleyin şərti var, şərt - əvəzində.

İndi peşmanlığın yeri yox daha,
Nə bəndəyə xoşdu, nə də Allaha.
Döysən də başına, yırtsan da yaxa,
Sayılar cəhd kimi, cəhd - əvəzində.

## Yaşadım

Dərdlərimin Araz oldu yarası,
Yarı Vətən, yarı Vətən parası.
Daha bunun salamatdı harası,
Ürəyimdə qara-yara yaşadım.

Süfrə açdım çörəyimi yeyənlər,
Oldu mənə böhtan, qarğış deyənlər.
Xəyanətdə ya ”lap”lardı, ya ”ən”lər,
”Lap-ənləri” qıra-qıra yaşadım.

Bir gün düşdüm məhəbbətin qoynuna,
Rast gəldim min kələyinə, oynuna.
Boyunduruq saldım günün boynuna,
Çəkə-çəkə ora-bura yaşadım.

Bu ömürdü saçlarıma saldı dən,
Bir zirvədi, hər addımı duman, çən.
Bir könüldü həm sevən, həm sevdirən,
Həmdəm oldum dosta, yara yaşadım.

## Əzizim

Könlümdə üç sevgili var, bilirsən,
Biri anam, biri Vətən, biri sən.
Anam köçmüş,Vətən cansız, diri sən,
Quc boynumu, çək sığalın, əzizim.

Axşam olcaq açarsan söz boxçasın.
Sinən yazlıq çiçəklərin bağçası.
Ala gözlər qəmli-qəmli baxmasın,
Bu sənmisən, ya xəyalın, əzizim?!

Bu da mənəm, eşq yolunda didərgin,
Gəldi-gedər, vəfa etməz ömür-gün.
Ya çək dara, ya əhv eylə, ya sürgün,
Ya mənimlə böl mahalın, əzizim.